# USING EFFECTIVE SELF-ASSESSMENT METHODS AND TOOLS FOR AZERBAIJAN LANGUAGE LEARNING

**Fidan Saribayli**
Teacher of Azerbaijani language and literature of
Baku French Lyceum Educational Complex,
Doctoral Student of the Institute of Education of the
Republic of Azerbaijan
E-mail: saribaylifidan@gmail.com
https://orcid.org/0000-0001-9347-5475

**Abstract**. It is clearly accepted that the assessment of students' knowledge and skills is one of the tools to ensure their progress in learning. Pedagogical research and school practice show that not only teachers but also students can participate as active members in the process through self-assessment. This allows the student to determine their own development in the learning process through self-assessment. Therefore, it is important for the teacher to have knowledge of the means and tools for self-assessment. The possibilities of applying self-assessment are wide, the types and requirements are multifaceted. Thus, taking into account the specific features of each subject, it is possible to use a wide range of opportunities for self-assessment. Experience shows that the use of tests, assignments and questions in Azerbaijani language classes to develop students' self-esteem are considered more effective methods.
**Keywords:** teaching of the Azerbaijani language, self-assessment, method, tool.

**DOI:** http://dx.doi.org/10.29228/imcra.33
**To cite this article:** Saribayli F. (2022). Using effective self-assessment methods and tools for Azerbaijan language learning. *Journal of Preschool and Primary Education*, Vol. 238, Issue I, pp. 71-83.
**Article history:** received – 10.02.2022; accepted – 28.02.2022.

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRDƏ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ BACARIQLARININ FORMALAŞDIRILMASI

**Fidan Sarıbəyli**
Bakı Fransız Liseyi Təhsil Kompleksinin
Azərbaycan dili və ədəbiyyat müəllimi,
Azərbaycan Respublikası Təhsil İnstitutunun doktorantı
E-mail: saribaylifidan@gmail.com
https://orcid.org/0000-0001-9347-5475

**Annotasiya.** Şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi onların təlimdə irəliləyişini təmin edən vasitələrdən biridir. Bu proses, əsasən, fənn müəllimləri tərəfindən həyata keçirilir. Pedaqoji araşdırmalar və qabaqcıl məktəb təcrübəsi göstərir ki, yalnız müəllimlər deyil, şagirdlər də özünüqiymətləndirmə vasitəsi ilə həmin prosesdə iştirak edə bilərlər. Bu isə şagirdə imkan verir ki, özünüqiymətləndirmə vasitəsilə qazandığı bilik və bacarıqların keyfiyyətini müəyyənləşdirsin və müstəqil şəkildə özünüinkişaf səviyyəsini yüksəltmək məqsədilə çalışsın. Odur ki, müəllimin özünüqiymətləndirmənin təşkili, həyata keçirilmə vasitələri, alətləri haqqında metodik səriştələrə malik olması vacib şərtlərdəndir. Belə ki, hər bir fənnin spesifik xüsusiyyətlərini nəzərə alaraq, özünüqiymətləndirmə imkanlarından geniş istifadə etmək olar. Şagirdlər özlərinin bilik və bacarıqları, inkişaf səviyyələri, güclü və zəif tərəfləri, maraq istiqamətləri və s. məsələlər üzrə yazılı, yaxud şifahi formada özünüqiymətləndirmə apara bilərlər. Təcrübə göstərir ki, Azərbaycan dili dərslərində şagirdlərdə özünüqiymətləndirmə bacarıqlarını formalaşdırmaq üçün testlərdən, tapşırıqlardan və suallardan istifadə daha səmərəli üsullar kimi qəbul edilir.

**Açar sözlər:** Azərbaycan dili dərsləri, özünüqiymətləndirmə bacarıqları, üsul, vasitə, elm.

**DOI:** http://dx.doi.org/10.29228/imcra.33
**Məqaləyə istinad:** Sarıbəyli F. (2022). Azərbaycan dili dərslərində şagirdlərdə özünüqiymətləndirmə bacarıqlarının formalaşdırılması. *«Məktəbəqədər və ibtidai təhsil»*, №1 (238), səh. 71-83.
**Məqalə tarixçəsi:** göndərilib – 10.02.2022; qəbul edilib – 28.02.2022.

## Giriş / Introduction

Müasir dövrdə elm və texnologiyaların sürətli inkişafı uşaqların da intellektual baxımdan inkişafına böyük təkan verir. Davamlı şəkildə artan bu inkişafın əsası isə məktəb mühitində qoyulur. Bu günün şagirdlərində düşünmə, anlama, sual vermək və problem həll etmək kimi kommunikativ və zehni bacarıqlar formalaşdırılmalıdır. Elə buna görə də inkişaf etmiş ölkələrdə yeni təhsil yanaşmaları həyata keçirilir. Beyin araşdırmalarına əsaslanan ***konstruktiv yanaşma*** bunlardan birincisidir. Bu yanaşmada şagirddə dil, zehni və sosial bacarıqların inkişafı ön plana çəkilir. Aydındır ki, yeni yanaşmalar yeni anlayışlar, yeni metod və üsulların tətbiqi ilə mümkündür və bu, Azərbaycan dilinin tədrisində də özünə yer almaqdadır. Üzərində dayandığımız özünüqiymətləndirmə bacarıqlarının formalaşdırılması da belə mütərəqqi yanaşmanın nəticəsi kimi tətbiq edilməkdədir. Özünüqiymətləndirmə formativ qiymətləndirmə prosesinin mühüm komponenti olub, onun bütün xüsusiyyətlərini, həmçinin təhsilalanların hazırlıq səviyyəsi və təcrübəsi baxımından fərqlilikləri özündə ehtiva edir. M.Tarasa görə, bu qiymətləndirmə metodu formativ qiymətləndirmənin tərkib hissəsi kimi daha çox səmərə vəd edir [Taras M., 2010]. Bu proses çərçivəsində şagirdlər öz işləri və təlim fəaliyyətləri haqqında düşünür, onu qiymətləndirir, qarşıya qoyulmuş məqsədlər haqqında mülahizə yürüdür, öz işlərinin güclü və zəif tərəflərini müəyyənləşdirir, onlara müvafiq düzəliş və dəyişikliklər edirlər [Boud və Falçikov., 2006]. Özünüqiymətləndirmə şagirdin təyin edilmiş meyarlar, norma və tələblər əsasında öz təlim fəaliyyəti, yaxud onun nəticələri barədə dəyərləndirici qərarlar verməsi; təlim fəaliyyətindəki problemləri və onların aradan qaldırılması yollarını müəyyənləşdirməsi; potensial imkanlarını, keyfiyyətlərini və mövqeyini aydınlaşdırmasıdır [Bəylərov E., 2011].

Araşdırmalar göstərir ki, nitqin fəaliyyət növləri üzrə şagird bacarıqlarının inkişafında özünüqiymətləndirmənin rolu daha çox tədqiqata cəlb olunmuşdur. A.S.Moheydat özünüqiymətləndirmə ilə oxu vərdişləri arasındakı əlaqəni araşdırmış və belə bir nəticəyə gəlmişdir ki, şagirdlərin özlərini qiymətləndirmələri ingilis dilində oxu bacarıqlarının inkişafına müsbət təsir göstərir [Moheydat A.S., 2011]. Şagirdin öz qrammatik biliklərini, söz ehtiyatını, oxuma, dinləmə, nitq və yazı bacarıqlarını qiymətləndirməsi yolları və onun faydaları ilə bağlı bir çox tədqiqat işləri aparılmışdır [Clark., 1981].

Özünüqiymətləndirmənin səmərəliliyini artıran amillərdən biri də onun hansı üsul və vasitələrlə həyata keçirilməsidir. Bu baxımdan test, tapşırıq və suallardan istifadə daha məqsədəuyğun hesab olunur.

## Əsas hissə / Main Part

Metodik ədəbiyyatın təhlili göstərir ki, tapşırıqlar mahiyyətinə, qarşıya qoyulan vəzifələrə, yerinə yetirilmə üsullarına və s. görə təsnif edilir, mahiyyətinə görə daha çox qazanılmış biliklərin bacarıqlar şəklində formalaşmasına, möhkəmlənməsinə xidmət etdiyi kimi, yeni biliklərin qazanılmasına və ümumiləşdirilməsinə də xidmət edir. Tapşırıqlar şifahi və yazılı formada yerinə yetirilir. Müasir məktəb təcrübəsində məzmun xətlərinə müvafiq olaraq, tapşırıqlar dinləmə, oxu, yazı və linqvistik tapşırıqlar kimi qruplaşdırılır. Linqvistik tapşırıqlar dilin daxili quruluşuna müvafiq qaydada fonetik (orfoqrafik və orfoepik), leksik, qrammatik tapşırıqlara bölünür. Təcrübədə tapşırıqların nəzəri biliklərin praktikada tətbiqi məqsədi ilə tərtibinə geniş yer verilsə də, onlardan həm də qiymətləndirmə vasitəsi kimi istifadə olunur. Belə ki, müəllimin tapşırıqların yerinə yetirilmə səviyyəsinə görə şagirdləri qiymətləndirməsi geniş yayılmış üsullardandır, lakin şagirdlərin özünüqiymətləndirməsində də tapşırıqlardan istifadənin səmərəli rol oynadığı məlumdur.

Azərbaycan dili dərsliklərində danışma və dinləmə bacarıqlarının inkişafına yönəlmiş yetəri qədər tapşırıqlar mövcuddur. Təqdim olunan bu tapşırıqların nəticələrini özünüqiymətləndirmə vasitələri ilə qiymətləndirmək mümkündür.

### Şifahi nitq bacarıqlarının özünüqiymətləndirməsi

***Cədvəl 1***

| **Azərbaycan dilində şifahi nitq bacarıqlarının özünüqiymətləndirmə cədvəli** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Şagirdin adı, soyadı** | | | | | | | |
| **Sinif:** | | | | | **Tarix:** | | |
| 1. | Danışarkən sözləri düzgün tələffüz edirəm. | | | | | | |
| | Çox zəif | 1 | 2 | 3 | 4 | 5 | Çox yaxşı |
| 2. | Danışarkən fikrimi düzgün ifadə edə bilirəm. | | | | | | |
| | Çox zəif | 1 | 2 | 3 | 4 | 5 | Çox yaxşı |
| 3. | Fikrimi ifadə etməkdə söz ehtiyatım kifayət edir. | | | | | | |
| | Çox zəif | 1 | 2 | 3 | 4 | 5 | Çox yaxşı |
| 4. | Fikrimi ifadə edərkən cümlələri qrammatik cəhətdən düzgün qururam. | | | | | | |
| | Çox zəif | 1 | 2 | 3 | 4 | 5 | Çox güclü |
| 5. | Azərbaycan dilində mütaliə edirəm. | | | | | | |
| | Çox az | 1 | 2 | 3 | 4 | 5 | Tez-tez |
| 6. | Daha əvvəl öz şifahi nitq bacarıqlarını özün qiymətləndirdinmi? | | | | | | |
| | Bəli | | | | | Xeyr | |

Qeyd edilən cədvəldəki kimi, sadə özünüqiymətləndirmə formalarının tətbiqindən sonra bir qədər mürəkkəb nümunələr də yaratmaq olar.

**Nitq bacarıqlarının özünüqiymətləndirməsi**

***Cədvəl 2***

| **Sıra N-si** | **Şagirdin adı, soyadı** ____________________ | **Bəli** | **Qismən** | **Xeyr** |
|---|---|---|---|---|
| **1.** | Danışarkən cümlələri düzgün qururam. | | | |
| **2.** | Danışarkən mimika və jestlərdən istifadə edirəm. | | | |
| **3.** | Oxuduğum mətnlər haqqında təəssüratlarımı yoldaşlarımla bölüşürəm. | | | |
| **4.** | Dinlədiyim və oxuduğum mətnləri ümumiləşdirərək, kiçik həcmli mətn təqdim edirəm. | | | |
| **5.** | Təqdimat edərkən fikirlərimi topladığım faktlarla əsaslandırıram. | | | |

Şagirdlərin həm oxuyub-anlama, həm şifahi nitq, həm də dil qaydalarına dair bilik və bacarıqlarının formalaşdırılması üzrə iş, əsasən, mətn üzərində aparılan iş prosesində inkişaf etdirilir. Azərbaycan dili dərsliklərində, demək olar ki, müvafiq bacarıqların aşılanması daha çox mətn üzərində qurulmuş tapşırıqlarda yerinə yetirilir. Bu mövqedən çıxış edərək, şagirdlərdə özünüqiymətləndirmə bacarıqlarının formalaşdırılması məqsədi ilə mətn üzərində iş aparılmasına üstünlük verilir. Mətnönü, mətndaxili və mətnsonrası sualların mahiyyətinin nəzərə alınması ilə hazırlanan bu tapşırıqlar şagirdlərin təqdim olunan mətnin mövzu və ideyasını, struktur elementlərini müəyyənləşdirmək, müvafiq mətn parçalarına başlıq seçmək, açar sözləri tapmaq, tanış olmayan sözləri izah etmək kimi işləri əhatə edir.

## Oxu bacarıqları üzrə özünüqiymətləndirmə rubriki

*Cədvəl 3*

| Özünüqiymətləndirmə rubriki | | | Tarix: |
|---|---|---|---|
| Şagirdin adı, soyadı ________________________________ | | | Sinif: IV |
| **Alt standart: 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir.** | | | |
| 1 | 2 | 3 | 4 |
| Oxuduğum mətndəki məlumatları mənimsəməkdə çətinlik çəkirəm. | Oxuduğum mətndəki məlumatları mənimsəyirəm, lakin nəticə çıxarmaqda çətinlik çəkirəm. | Oxuduğum mətndəki məlumatları mənimsəyirəm və nəticə çıxarıram, lakin əsaslandırmaqda çətinlik çəkirəm. | Oxuduğum mətndəki məlumatları mənimsəyirəm, nəticə çıxarıram və çıxardığım nəticəni əsaslandıraraq izah edirəm. |
| **Alt standart: 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur.** | | | |
| 1 | 2 | 3 | 4 |
| Mətnin bir hissəsini oxuduqdan sonra davamını təxmin edə bilmirəm. | Mətnin bir hissəsini oxuduqdan sonra davamını təxmin etməkdə çətinlik çəkirəm. | Mətnin bir hissəsini oxuduqdan sonra davamını təxmin edə bilirəm, lakin yaradıcı plan tutmaqda çətinlik çəkirəm. | Mətnin bir hissəsini oxuduqdan sonra davamını təxmin edə bilirəm, eyni zamanda epizod və obrazlar əlavə etməklə yaradıcı plan tuturam. |

Özünüqiymətləndirmə yazı işlərinin qiymətləndirilməsi prosesində də tətbiq olunur. Bu prosesin səmərəliliyi o zaman üzə çıxır ki, müəllim yazı işlərinin hansı aspektdə təhlil edilməli olduğunu şagirdlərə praktik iş prosesində başa sala bilsin. Daha dəqiq desək, inşa, esse, hekayələrin yoxlanılması zamanı məzmunun tamlığı, faktların düzgünlüyü, fikirlərin məntiqi olması və ardıcıllığı ilə yanaşı, sözlərin yerli-yerində işlədilməsi, təkrarçılığa yol verilməməsi, orfoqrafik səhvlər buraxılmaması kimi meyarlar üzərində mütəmadi iş aparılmalı və onun mahiyyəti açıqlanmalıdır. Daha sonra yazı işlərinin cütlər arasında qarşılıqlı yoxlanması davamlı bir proses halını almalıdır. Belə olduqda şagirdlər yoldaşlarının yazılarına ciddi yanaşır, səhvləri göstərməkdən əlavə, onları təshih edir, bununla bağlı fikir mübadiləsi aparırlar. Müəllim şagirdlərə yazı işlərinin qiymətləndirilməsi ilə bağlı müvafiq bacarıqların aşılandığına əmin olduqdan sonra onlardan öz yazı işlərini qiymətləndirməyi tələb edə bilər.

## Yazı bacarıqları üzrə özünüqiymətləndirmə vərəqəsi

*Cədvəl 4*

| **Özünüqiymətləndirmə vərəqəsi** | | | | |
|---|---|---|---|---|
| **Şagirdin adı, soyadı:** | | | | |
| **Sinif:** | **IV sinif** | | **Tarix:** | |
| **Meyarlar:** | | **Uğurlu** | **Qismən uğurlu** | **Uğursuz** |
| 1. | Qrammatik qaydalara uyğun düzgün cümlələr qura bilirəm. | | | |
| 2. | Yazarkən böyük və kiçik hərflə başlayan sözlərin yazılışında səhv etmirəm. | | | |
| 3. | Yazıda durğu işarələrindən düzgün istifadə edirəm. | | | |
| 4 | Qurduğum cümlələri bir paraqrafda birləşdirə bilirəm. | | | |
| 5 | Fikrimi ifadə edən sadə mətnlər yaza bilirəm. | | | |
| 6 | Yazdığım mətni giriş, əsas hissə və nəticə hissələrinə uyğun tərtib edə bilirəm. | | | |

Özünüqiymətləndirmə bacarıqları tam formalaşdıqdan sonra müəllimin şagirdin yazısındakı səhvləri düzəltməsinə ehtiyac qalmayacaq. Müəllim səhv yazılmış sözü və ya cümləni işarə edərək (rəngli karandaşla rəngləmək, altından xətt çəkməklə) şagirdin diqqətini həmin səhvə yönəldir, qrammatik qaydaları izah edərək öz səhvini düzəltməsiinə nail olur. Öz yazısını yoxlayan şagird səhvlərini özü müəyyənləşdirib düzəltdiyi üçün qrammatik qaydaları daha yaxşı mənimsəyir, düzgün yazı bacarıqlarına tam yiyələnmiş olur. Digər tərəfdən, özünüqiymətləndirmə zamanı yazının qiymətləndirilməsi meyarlarını qavrayan şagird müəllimin diktəsi ilə yazdırılan imlaların hansı normalara əsasən qiymətləndiriləcəyini bildiyi üçün səhvə yol verməməyə çalışır.

## Yazı işləri üzrə özünüqiymətləndirmə

*Cədvəl 5*

| | | |
|---|---|---|
| **Şagirdin adı, soyadı___________________________** | | **Tarix:** |
| Mətni üzündən köçürürəm, lakin əlavələr edə bilmirəm. | Mətnə əlavələr etməklə üzündən köçürməkdə çətinlik çəkirəm. | Mətnə əlavələr etməklə üzündən köçürürəm. |
| Dinlədiyim şeri nəsrə çevirərək, məzmununu yaza bilmirəm. | Dinlədiyim şeri nəsrə çevirərək, məzmununu yazmaqda çətinlik çəkirəm. | Dinlədiyim şeri nəsrə çevirərək, məzmununu yaza bilirəm. |
| Oxuduğum əsərdəki müəyyən epizodla bağlı kiçik həcmli esse yaza bilmirəm. | Oxuduğum əsərdəki müəyyən epizodla bağlı kiçik həcmli esse yazmaqda çətinlik çəkirəm. | Oxuduğum əsərdəki müəyyən epizodla bağlı kiçik həcmli esse yazıram. |

Təcrübə göstərir ki, siniflər üzrə dil qaydalarının məzmunu dəyişdikcə, özünüqiymətləndirmə meyarları da dəyişir, hər sinfin səviyyəsinə uyğunlaşdırılır.

Şagirdlərin linqvistik bilik və bacarıqlara yiyələnmə səviyyəsini müəyyənləşdirmək üçün istifadə edilən özünüqiymətləndirmə vasitələrindən biri də konkret şəkildə qoyulmuş dil faktları və hadisələrinin işarələnməsi ilə bağlıdır. Belə ki, şagird hər hansı bir dil qaydasını mənimsəyibsə, qarşısında “ +’’ və ya hər hansı bir digər işarə qoyur. Nümunələrə diqqət yetirək.

## Dil qaydaları üzrə özünüqiymətləndirmə

*Cədvəl 6*

| Meyarlar | Bilmirəm | Qismən bilirəm | Bilirəm |
|---|---|---|---|
| Sözün leksik və qrammatik mənalarını fərqləndirirəm. | | | |
| Cümlədə köməkçi nitq hissələrini digər nitq hissələrindən fərqləndirirəm. | | | |
| Cümlə üzvlərini müəyyən edirəm. | | | |
| Cümlə üzvlərinin ifadə vasitələrini müəyyənləşdirirəm. | | | |
| Cümlə üzvlərinin yerini müəyyən edirəm. | | | |
| Verilmiş sözlərdən sual cümlələri qururam. | | | |
| Məqsəd və intonasiyadan asılı olaraq, cümləni müvafiq durğu işarəsi ilə bitirirəm. | | | |

Məktəb təcrübəsi göstərir ki, bu tip özünüqiymətləndirmədən şagirdlərin fonetika, söz yaradıcılığı, morfologiya, sintaksis, hətta punktlaşdırmaya dair bilik və bacarıqlarının müəyyənləşdirilməsi məqsədi ilə istifadə olunur. Bu vasitənin səmərəliliyi ondadır ki, müəllim şagirdin hansı bacarıqları mənimsədiyini, hansılarını isə mənimsəmədiyini konkret olaraq müəyyənləşdirə bilir və onunla müvafiq istiqamətdə fərdi məşğul olmaq üçün plan tərtib edir.

Yeni nəsil Azərbaycan dili dərslikləri müxtəlif mövzulara həsr olunmuş bədii və publisistik mətnlər, həmçinin dil qaydaları ilə bağlı yığcam məlumatlar üzərində qurulmuşdur. Əgər belə mətnlər şagirdlərin oxu və yazı bacarıqlarının formalaşmasına, lüğət ehtiyatının zənginləşdirilməsinə xidmət edirsə, dil qaydaları da linqvistik təfəkkürün inkişafına yönəlmişdir. Bununla əlaqədar qazanılmış səriştələrin hansı səviyyəyə uyğun olduğunu müəyyənləşdirmək üçün dərs ili ərzində fənn müəllimi tərəfindən formativ və summativ qiymətləndirmələr aparılır. Beləliklə, özünüqiymətləndirmə də formativ qiymətləndirmənin bir növü olub, şagirdlərin özləri tərəfindən yerinə yetirilir. Bu cür qiymətləndirmənin effektivliyini artıran vasitələrdən biri də keçilmiş mövzunun şagirdlər tərəfindən nə dərəcədə mənimsənildiyini yoxlamaq məqsədi ilə dərsin sonunda, suallar şəklində şagirdlərə ünvanlanmış özünüqiymətləndirmə vərəqələridir. Bu vərəqələr, bir qayda olaraq, iki, bəzən üç sualı əhatə edir. Qiymətləndirmənin yığcamlığı onun az vaxt ərzində yerinə yetirilməsinə şərait yaradır. Cavablandırılmış suallardan ibarət vərəqələr müəllim tərəfindən yığılır, növbəti dərsə qədərki müddətdə yoxlanılır və təhlil edilir. Bu, şagirdin öz işini hansı istiqamətdə qurmasına metodik kömək göstərir. Şagirdlərdə özünüqiymətləndirmə bacarıqlarının formalaşmasında daha böyük rol oynayan bu suallar, adətən, aşağıdakı məzmunda olur:

1. Bu dərsdə nə öyrəndim?

   ___________________________________

2. Hansı məqamlarda köməyə ehtiyacım oldu?

   ___________________________________

3. Nəyi daha yaxşı etməyi bacardım?

   ___________________________________

Belə yanaşma şagirdlərin öz fikirlərini yazılı şəkildə yığcam, lakonik ifadə etmələrinə xidmət edir. Bu özünüqiymətləndirmə formasının mütəmadi şəkildə hər bir dərsin, mövzunun sonunda tətbiq olunması şagirdləri dərsə diqqətlə, məsuliyyətlə yanaşmağa təhrik etdiyi kimi, öz bilik və bacarıqlarını digər şagirdlərlə müqayisə etməyə də imkan yaradır.

Təhsil sahəsində həyata keçirilən yeni islahatlara baxmayaraq, hələ də qiymətləndirmə sahəsində köhnə təcrübələrdən, xüsusilə bilik ölçən suallardan

və yarpaq testlərdən istifadə olunur. Bu tip qiymətləndirmə üsullarına üstünlük verilməsinin əsas səbəbi belə testlərin tərtib edilməsinin və yoxlanılmasının asan olmasıdır. Bu gün əksər tədqiqatlarda yarpaq testlər sərt şəkildə tənqid olunur və onların mənfi cəhətləri sadalanır. Həmin testlərin səmərəlilik baxımından zəif olduğu, şagirdlərin nitq və zehni bacarıqlarını inkişaf etdirmək üçün yetərli olmadığı, yazı bacarıqlarını qiymətləndirə bilmədiyi tez-tez vurğulanır. Test sualları şagirdin sual üzərində düşünməsinə və ona yeni bir şərh gətirməsinə maneə törədir, çünki o, hazır məlumatları araşdırır. Bu vəziyyət ötürülən məlumatların bilik səviyyəsindən kənara çıxmasına mane olur. Nəticədə, informasiya əsrində təkbaşına qərar vermək qabiliyyətinə malik şəxsiyyətin yetişdirilməsi çətinləşir [Tezci E., 2016]. Dərslərdə özünüqiymətləndirmənin bir sistem halında tətbiqi qiymətləndirmənin mahiyyətini dəyişir, bilik və bacarıqların dəyərləndirilməsindən daha çox şagirdi özünüinkişafa təhrik edən bir vasitəyə çevrilir.

Məlumdur ki, müsbət qiymətləndirmə müəllimə və maraqlı tərəflərə şagirdlərin biliklərini təcrübədə tətbiq etmələrinə, yenilikləri kəşf etməyə, gələcək tədris prosesini planlaşdırmağa, onun izlənməsi və inkişafi prosesi ilə bağlı qərarlar qəbul etmələrinə kömək edir, eyni zamanda, tədris prosesində istifadə olunan metod və yanaşmaların məqsədəuyğunluğunu müəyyən edir. Təcrübə göstərir ki, qiymətləndirməni həyata keçirən müəllimlərin əksəriyyəti test tapşırıqlarına üstünlük verirlər. Müəllimlərin çoxu yarpaq testləri asanlıqla tətbiq edilə bilən obyektiv qiymətləndirmə vasitəsi hesab edirlər. Ölkəmizdə şagirdlərin dil biliklərinin qiymətləndirilməsində ən çox istifadə olunan metod yarpaq testlərdir. Oxu bacarıqlarını dəyərləndirmək üçün bu tip testlərdən istifadə edilsə də, yazı bacarıqlarını yoxlamaq üçün yarpaq testlər yararlı olmur. Həm də yüksək səviyyəli zehni bacarıqları (metokoqnitiv bacarıqları) ölçmək üçün yarpaq testləri hazırlamaq olduqca çətindir [Yıldırım C., 1983]. Mövzu haqqında heç bir məlumatı olmayan şagird də test tapşırıqlarında təsadüfən doğru cavabı tapa bilər. Bu vəziyyət test sualında təqdim olunan variantların sayı ilə tərs mütənasibdir, lakin nə qədər çox seçim variantı təqdim olunsa da, təsadüfən doğru cavabın seçilməsi ehtimalı hər zaman var. Eyni zamanda, nəzərə almaq lazımdır ki, bu tip test tapşırıqlarında şagirdlərin oxuma sürəti nəticəyə təsir edir. Bir mövzuda eyni bilik səviyyəsinə malik olan şagirdlər arasında oxu sürəti yüksək olanlar daha yüksək bal toplaya bilərlər.

Düşünmək olar ki, şagirdlər test tapşırıqlarını yerinə yetirdikdən sonra təqdim olunan doğru cavablar əsasında öz testlərini yoxlayıb, özlərini qiymətləndirə bilərlər, lakin unutmamalıyıq ki, özünüqiymətləndirmə öyrətməyə xidmət edir, yəni formativ qiymətləndirmənin bir üsulu kimi, onun vəzifəsi şagirdlərə qiymət yazmaq deyil. Şagird öz səhvlərindən öyrəndiyi, zəif və güclü tərəflərini müəyyən

etdiyi zaman özünüqiymətləndirmə qarşıya qoyulmuş məqsədi reallaşdıra bilir. Test tapşırıqlarının obyektivliyini təmin etmək üçün şagirdlərə öz cavablarını izah etməyi və əsaslandırmağı tələb edən tapşırıqlar təklif etmək olar.

## Nəticə / Conclusion

Azərbaycan dili fənninin prioritet vəzifəsi ana dilində çətinlik çəkmədən ünsiyyət quran, informasiyanı qəbul edib öz düşüncələrini rahatlıqla başqalarına şifahi və yazılı şəkildə ötürə bilən gənclər yetişdirməkdir. Ona görə də Azərbaycan dili dərslərinin məzmunu nitqin fəaliyyət növlərinə uyğun dörd istiqamət üzrə işlənilib ki, bunlar da "Dinləyib-anlama və danışma", "Oxu", "Yazı" və "Dil qaydaları" məzmun xətlərini əhatə edir. Məhz şagirdlərə aşılanan bacarıqlar bu dörd təməl üzərində qurulmaqla mətnə əsasən tərtib olunan sual və tapşırıqlar, müvafiq çalışmalar, test nümunələri, müxtəlif yazı işləri vasitəsi ilə həyata keçirilir. Aydındır ki, dil dərslərində verilən tapşırıqlar qiymətləndirmə prosesində xüsusi yer tutur və sadalanan bütün məzmun xətlərində standartlar şəklində ifadə olunmuş bilik və bacarıqların reallaşdırılmasını təmin edir. Bundan əlavə, tapşırıqlar dərsdə əldə edilmiş bilik və bacarıqları möhkəmləndirmək, şagirdin yaradıcı və sərbəst düşünmə qabiliyyətini inkişaf etdirməkdə müstəsna rol oynayır, lakin Azərbaycan dili dərslərində tapşırıqların yerinə yetirdiyi funksiyalar bununla tamamlanmır, onlar həm də şagirdlərin qazandığı bilik və bacarıqların qiymətləndirilməsində bir vasitə kimi çıxış edir. Bu baxımdan, şagirdin hər hansı bir istiqamət üzrə qazandığı uğurların səviyyəsi, yaxud hər hansı bilik, bacarıqlara zəif yiyələnməsi barədə dəqiq informasiyaya malik olması üçün özünüqiymətləndirmədə tapşırıqlardan istifadə səmərəli yol hesab olunur. Məhz tapşırıqların özünüqiymətləndirmə formaları ilə yoxlanılması müstəqil təlim və özünüinkişaf vərdişlərinə yiyələnmə imkanı yaradır.

Digər sadə özünüqiymətləndirmə formalarından biri suallardır. Bu cür özünüqiymətləndirmə forması verilən hər hansı bir tapşırığın icrasından sonra tətbiq edilə bilər. Sual tipli tapşırıqlar həm şagirddə özünüqiymətləndirmə bacarıqlarını formalaşdırır və onu öz şifahi nitqi barədə düşünməyə, onun üçün çətinlik yaradan məqamları üzə çıxarıb dərk etməyə, həll yollarını axtarmağa vadar edir. Bu, eyni zamanda, müəllimə sinfin ümumi səviyyəsini müəyyənləşdirməkdə kömək edir, şagirdlərin şifahi nitq bacarıqlarını inkişaf etdirmək üçün işləri hansı istiqamətdə aparmaq lazım olduğunu müəyyənləşdirməyə imkan verir. Bu tip sadə özünüqiymətləndirmə formalarında müəllim sualların sayını çoxalda bilər, müəyyən məqamları dəqiqləşdirmək üçün onları müxtəlif formalarda tərtib edə bilər.

Özünüqiymətləndirmədə "Özünü yoxla" başlığı altında verilmiş testlərdən də

istifadə etmək olar. Şagirdlərin linqvistik bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədi ilə tətbiq edilən bu tip testləri yerinə yetirən şagirdlər cavablarının düzgün olub-olmadığını onlara verilən cədvəl vasitəsi ilə yoxlayırlar. Şagird verdiyi səhv cavablar üzərində müstəqil düşünməli, onların təhlilini aparmalı, səbəbini yoldaşları ilə müzakirə etməli, lazım gələrsə, hətta müəllimdən yardım da istəməlidir. Məhz bu üsulla qiymətləndirmə şagirdin özünə tənqidi yanaşmasına, buraxdığı səhvlərin kökünü araşdırmasına, lazımi qaydaları bir daha düşünərək təkrarlamasına imkanlar açır. Beləliklə, Azərbaycan dili dərslərində hər üç özünüqiymətləndirmə vasitəsi səmərəlidir.

**Problemin aktuallığı**. Son illərdə ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin standartları üzrə işlənmiş fənn proqramı (kurikulumu) əsasında tədrisi və yeni qiymətləndirmə modelinin tətbiqi şagirdlərdə özünüqiymətləndirmə bacarıqlarının formalaşdırılmasını aktual problemlərdən biri kimi zəruriləşdirdi. Birmənalı şəkildə qəbul olunmuşdur ki, şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi onların təlimdə irəliləyişini təmin edən vasitələrdən biridir. Bu proses, əsasən, fənn müəllimləri tərəfindən həyata keçirilir. Şagirdlərin bilik və bacarıqlarının obyektiv qiymətləndirilməsi təlimin keyfiyyətli təşkilindən qaynaqlanır və onunla mütənasib münasibətdədir. Pedaqoji araşdırmalar və qabaqcıl məktəb təcrübəsi göstərir ki, yalnız müəllimlər deyil, şagirdlər də özünüqiymətləndirmə vasitəsi ilə qiymətləndirmə zamanı həmin prosesin aktiv iştirakçısı olurlar. Bu, şagirdə imkan verir ki, özünüqiymətləndirmə vasitəsi ilə təlim prosesində öz inkişafını, qazandığı bilik və bacarıqların keyfiyyətini müəyyənləşdirib, öz iradəsi ilə, müstəqil şəkildə onu yüksəltmək məqsədilə çalışsın. Azərbaycan dili dərslərində özünüqiymətləndirmə təlim prosesinin ayrılmaz tərkib hissəsi kimi həyata keçirildikdə şagirdlərin şifahi və yazılı nitqi, eləcə də linqvistik bacarıqları xeyli inkişaf edir. Ən əsası, onların öz təlim fəaliyyətlərinə tənqidi yanaşmaları, buraxlan səhvləri vaxtında aradan qaldırmaqla qoyulmuş hədəflərə çatmaları təmin olunur. Odur ki, müəllimin özünüqiymətləndirmənin təşkili, həyata keçirilməsi vasitələri, alətləri haqqında metodik səriştələrə malik olması aktual problem kimi gündəmdədir

**Problemin elmi yeniliyi** Azərbaycan dili dərslərində şagirdlərin özünüqiymətləndirmə bacarıqlarının formalaşması üçün istifadə olunan səmərəli üsul və vasitələrin müəyyənləşdirilməsindən ibarətdir. Azərbaycan dili dərslərində özünüqiymətləndirmə müxtəlif üsul və vasitələrlə: özünüqiymətləndirmə vərəqələri, testlər, tapşırıqlar və sualar vasitəsi ilə, bütün məzmun xətləri ilə bağlı bilik-bacarıqların səviyyəsini müəyyənləşdirmək məqsədi ilə aparıla bilər.

**Problemin praktik əhəmiyyəti.** Müəllimlər Azərbaycan dili fənninin spesifik xüsusiyyətlərini nəzərə alaraq, özünüqiymətləndirmənin geniş şəkildə tətbiqi üçün müxtəlif təlim vəsaitləri hazırlayaraq tətbiq edə və öz fəaliyyətlərini

müasir pedaqoji tələblərə uyğun qura bilərlər. Özünüqiymətləndirmə özlüyündə geniş imkanlara malik olsa da, onun düzgün tətbiqi üçün müəllimin nəzəri və praktik hazırlığının olması vacibdir.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Bəylərov E. (2011). Formativ qiymətləndirmə. “Kurikulum”, elmi-metodik jurnal, № 3.
2. İsmayılov R., Abdullayeva S., Qasımova X., və b. (2019). Azərbaycan dili. (4-cü sinif), (müəllim üçün metodik vəsait). Bakı, “Altun Kitab”, 240 s.
3. İsmayılov R., Abdullayeva S.,Cəfərova S., Qasımova X. (2019). Azərbaycan dili. (4-cü sinif), (dərslik). Bakı, “Altun Kitab”, 227 s.
4. Boud D., Falchikov N. (2006). Aligning assessment with long-term learning. Assessment & Evaluation in Higher Education, 31(4), pp. 399-413.
5. Clark J. L. D. (1981). Language. In T. S. Barrows (Ed.). A survey of global understanding: Final report New Rochelle, NY: “Change Magazine Press”, pp. 87-100.
6. Moheidat A.S. and Baniabdelrahman A.A. (2011). The impact of Omani twelfth- grade students’ self-assessment on their performance in reading in English. “Asian EFL” Journal, 13(1), pp. 48-84.
7. Taras M. (2001). The Use of Tutor Feedback and Student Selfassessment in Summative Assessment Tasks: Towards Transparency for Students and for Tutors. Assessment & Evaluation in Higher Education, 26 (6), pp. 606-614.
8. Taras M. (2010). Student Self-assessment: processes and consequences. Teaching in Higher Education, 15 (2), pp. 199-213.
9. Tezci E. (2016). Eğitimde ölçme ve değerlendirme. Ankara,Detay Yayın.
10. Tezci E., Yıldırım B. (2016). Öğretimde Planlama ve Değerlendirme. Ankara, Detay Yayın.
11. Yıldırım C. (1983). Eğitimde Ölçme ve Değerlendirme, Ankara, ÖSYM Eğitim Yayınları:7.